Görkəmli şəxslər seriyasından

**Valeri Voskoboynikov**

# İbn Sina

## BÖYÜK LOĞMAN

Tərcüməçi:
Zeynal Babayev

QANUN NƏŞRİYYATI

Валерий Воскобойников

# Ибн Сина

## ВЕЛИКИЙ ВРАЧЕВАТЕЛЬ

Əsər məşhur təbib İbn Sinanın müdrikliyi, insanlara kömək etmək arzusu və həyat təcrübəsindən bəhs edir. Müəllif Loğmanın biliyi, səbirli davranışı və insanlara verdiyi düzgün məsləhətlər vasitəsilə onun böyüklüyünü göstərir. Kitabda xeyirxahlıq, ədalət və ağıllı qərar verməyin əhəmiyyəti vurğulanır. Əsər oxucunu düşünməyə və müdrik davranmağa təşviq edir.

Müəllif Keykavusun "Qabusnamə" kitabının bəzi motivlərindən istifadə edib.

**Валерий Воскобойников**
**ИБН СИНА  ВЕЛИКИЙ ВРАЧЕВАТЕЛЬ**

**Valeri Voskoboynikov**
**İBN SİNA  BÖYÜK LOĞMAN**

Janr: bədii-tarixi hekayə
Yaş qrupu: 10+
Ölçü: 130x200 mm
Cild: qalın
Səhifə sayı: 248

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Zeynal Babayev
Redaktor: N.Rəhimov
Korrektor: Aytən Səadəti
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-050-6

© Qanun Nəşriyyatı, 2026
© "Gənclik" nəşriyyatı , 1984

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

## MÜNDƏRİCAT


UŞAQLIQ VƏ GƏNCLİK ........................................ 11

XARƏZMDƏ KEÇƏN İLLƏR ................................ 114

SƏRGƏRDANLIQ.................................................. 151

HƏMƏDANDA VƏZİR ........................................... 182

YEKUNLAR............................................................... 221

# ƏBU ƏLİ İBN-SİNA

*Tərcümeyi-hal*

*Naməlum torpaqlara ilkin qədəm basanlar,*
*Mətin inqilabçılar – o qüdrətli insanlar*
*Haqqındadır bu kitab.*

*Dünyamızı daha şux etmək üçün dünyaya*
*Xoş qədəmlə gələnlər,*
*Elmə, incəsənətə yol açaraq, onları*
*Candan əziz bilənlər –*
*Haqqındadır bu kitab.*

*Hələ lap uşaqlıqdan müqəddəs bir arzunu*
*Ürəyində tutanlar,*
*Öz ali məqsədinə çatmaq üçün sidq ilə*
*Qədəmini atanlar –*
*Haqqındadır bu kitab.*

Min il bundan əvvəl Buxarada Əbu Əli Hüseyn ibn-Abdulla ibn-Həsən ibn-Əli ibn-Sina adlı dahi bir şəxs yaşayırdı.

Bu uzun ad o vaxtın bir çox şərq adları kimi qəribə görünür. Halbuki əslində bu adlarda hər şey sadədir. Bir qədər sonra onun adının mənası aydın olar.

Həmin şəxs – İbn Sina kimdir? Həkimlər deyərlər ki, o, dahi loğmandır.

Riyaziyyatçılar isə:

– Yox, o, məşhur astronom və riyaziyyatçıdır, – deyərlər.

– Bir də böyük şair və yazıçıdır, – deyə ədiblər təsdiq edərlər.

– Axı o, geologiya nəzəriyyəçisidir, – deyə geoloqlar bildirərlər.

– Həm də musiqi nəzəriyyəçisidir, – deyə musiqiçilər dillənərlər.

– Həm də filosofdur, – deyə filosoflar təsdiq edərlər.

Onların hamısı da haqlı olar.

Bəs gah baş nazir təyin edilən, gah vəzirlik edən, gah da məhbəsə salınan bu əbədi sərgərdan adam kimdir?

Nə üçün ölümündən neçə yüz il keçəndən sonra dindar fanatiklərin əmrinə əsasən İbn-Sinanın fəlsəfi əsərləri Bağdadın baş meydanında yandırılır?

Daha bir neçə yüz il keçəndən, Avropada çap dəzgahı ixtira ediləndən sonra isə Bibliya çap olunan kimi "Təbabət elminin qanunları" adlı iri beşcildliyi nəşr edilmişdir.

Bu kitabların müəllifi İbn Sina olmuşdur. Avropada isə onu "Avisenna" adlandırırlar.

Müsəlman kitabxanaları onun kitablarını qayğı ilə qoruyub saxlayırlar. Nadir adamlara bu kitablara toxunmağa icazə verilir. Biz onun bir çox kitabları haqqında ancaq ağızdan-ağıza eşitmişik. Surətçıxaranlar İbn-Sinanın kitablarının surətini səliqə ilə çıxartmışlar. Avropanın müxtəlif ölkələrində bu kitabların nüsxələri çap dəzgahlarında çoxaldılmış, onlar neçə-neçə dillərə tərcümə edilmişdir.

Orta Asiyada İbn Sina haqqında rəvayətlər danışır, dastanlar oxuyurlar.

Ümumdünya Sülh Şurasının çağırışı ilə yer üzünün bütün insanları onun anadan olmasının minilliyini bayram etmişlər[1].

*Bəs bu adam – İbn Sina kimdir?*

---

[1] İbn-Sinanın minilliyi müsəlman tarixi (hicri) ilə bayram edilmişdir. Xristian tarixiləsə İbn-Sinanın anadan olmasının minilliyi 1980-ci ildə tamam olmuşdur.

# UŞAQLIQ VƏ GƏNCLİK

O vaxt tərbiyə haqqında kitablarda belə deyilirdi: "Oğlun olanda, birinci növbədə, ona yaxşı bir ad qoy".

Hüseyn adı gənc Abdullanın xoşuna gəlirdi. Bu ad onun arvadı Sitarə banuya da xoş gəlirdi. Onlar birinci oğullarını Hüseyn adlandırmağı çoxdan qət etmişdilər.

Uşağa künyə – fəxri ad da verilə bilərdi. Nəcib ailələr də belə edirdilər. Abdulla gülə-gülə deyirdi: "Oğlumun mütləq öz oğlu olacaqdır! Buna görə də qoy oğlum Hüseyn əziyyət çəkməsin. Mən artıq onun gələcək oğluna Əli adı vermişəm". O bu sözləri deyib, öz-özünə belə fikirləşirdi: "Əlbəttə, mömin xəlifə Əlinin şərəfinə". Oğlumun künyəsi Əbu Əli, yəni Əlinin atası olacaq. Sonra "ism"in özü – Hüseynin adı gedəcək, ondan sonra ərəb sözü "ibn" – oğul ilə birləşdiriləcək, daha sonra babasının, ulu babasının, ulu babasının babasının adı gələcək.

Təzəcə doğulan, çox çığırqan olan və ailənin fərəhi hesab edilən uşağı artıq belə çağırırdılar: Əlinin atası Hüseyn, Abdullanın oğlu. Həsənin (babasının adı belə idi), Əlinin oğlu, Sinanın oğlu.